yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur







2 SİZƏ QƏZET LAZIMDIRMI?

3 QURBANINIZ QURBAN OLA

4 ÇANAĞINDAN ÇIXIB ÇANAĞINI BƏYƏNMƏYƏNLƏR VƏ YA 17 İLƏ ÖYRƏDİLƏ BİLMƏYƏN DİL

5 CƏMİYYƏTİMİZİN GEYİNDİRDİYİ AĞ GƏLİNLİYİN QARA ASTARI



HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 AVQUST 2018-Cİ İL

№012 (71)


## 8 AVQUST MÜHARİBƏSİNDƏN 10 İL ÖTÜR



2008-ci ilin 8 avqust tarixində baş vermiş Rusiya-Gürcüstan müharibəsində Gürcüstan Müdafiə Nazirliyinin 170 xidmətçisi, Daxili İşlər Nazirliyinin 14 əməkdaşı və 224 mülki şəxs həlak olub.

Səhiyyə Nazirliyinin məlumatına görə, yaralı mülki və hərbi şəxslərin sayı 2 232 nəfəri təşkil edib. Onlardan 1045 nəfəri hərbçi olub.

Avqust müharibəsindən sonra Gürcüstanda qaçqınların sayı 263 598-ə qədər artıb. 2009-2015-ci illərdə isə ümumilikdə 18 679 ailəyə yaşayış sahəsi verilib.

Gürcüstanın Xarici İşlər Nazirliyinin məlumatına görə, 2008-ci ilin 12 avqust tarixində atəşin dayandırılmasına dair razılıqla götürülmüş öhdəliklərə baxmayaraq, Rusiya yenə də suveren və müstəqil dövlət regionlarının qanunsuz işğalını davam etdirməkdədir.

## PREZİDENT SEÇKİLƏRİ OKTYABRIN 28-İ KEÇİRİLƏCƏK



Gürcüstan prezidenti Giorgi Marqvelaşvili 2018-ci ilin prezident seçkilərinin tarixini açıqlayıb. G. Marqvelaşvilinin bəyanatına əsasən, prezident seçkiləri oktyabrın 28-i keçiriləcək və buna dair baş nazirlə razılığa gəlinib.

G. Marqvelaşvili müvafiq sənədlərin avqustun 1-i baş-nazir aparatına göndərildiyini qeyd edib.

## GÜRCÜSTAN ALİ MƏHKƏMƏSİNİN SƏDRİ İSTEFA VERİB



Gürcüstan Ali Məhkəməsinin sədri Nino Qvenetadze istefa verib. Onun bəyanatı qurumun saytında yerləşdirilib.

Bəyanata əsasən, N. Qvenetadze səhhətinin pisləşməsi səbəbindən vəzifəsini tərk edib – bir neçə ay ərzində müalicə kursu keçməlidir.

Xatırladaq ki, Nino Qvenetadze Gürcüstan Parlamenti tərəfindən 2015-ci ildə on il müddətinə Ali Məhkəmə sədri vəzifəsinə seçilib. Onun namizədliyini Gürcüstan prezidenti Giorgi Marqvelaşvili irəli sürüb.

Ali Məhkəmənin saytında yerləşdirilmiş bəyanatda qeyd olunub ki, N. Qvenetadzenin rəhbərliyi altında məhkəmə islahatlarının üçüncü və dördüncü dalğaları həyata keçirilib.

## KONSTİTUSİYA MƏHKƏMƏSİNİN QƏRARI – GÜRCÜSTANDA MARIXUANA İSTİFADƏSİ LEQALLAŞDI



Gürcüstanın Konstitusiya Məhkəməsi iyulun 30-da artıq üç aya yaxındır ki, baxdığı işin hökmünü elan edib. Hökmə əsasən, marixuanadan istifadə leqallaşıb.

Bununla da məhkəmə "Qirçi" Partiyasının liderləri Zurab Caparidze və Vaxtanq Meqrelişvili tərəfindən irəli sürülən iddianı təmin edib. Onlar artıq uzun illərdir ki, marixuananın leqallaşması və narkosiyasətin liberallaşmasına çalışırdılar.

Məhkəmə qərarına əsasən, marixuana istifadəsi yalnız üç insan üçün təhlükə daşıdığı halda cəzalandırılacaq. Məsələn, təhsil müəssisələrində, nəqliyyatda, insanların toplaşdığı yerlərdə.

Eyni zamanda marixuananın becərilməsi və yayılmasına görə cinayət məsuliyyəti yenə də qüvvədə qalır.

Məhkəmə qərarı elan olunandan sonra "Qirçi" Partiyasının lideri Zurab Caparidze bildirib ki, "bu, marixuana uğrunda deyil, azadlıq uğrunda mübarizə idi".

Qeyd edək ki, ötən il Gürcüstanın Konstitusiya Məhkəməsi marixuananın istifadəsini dekriminallaşdırmışdı, buna görə cəza olaraq yalnız inzibati cərimələr saxlanmışdı. Amma fəallar inzibati cəzanın da ləğv olunması ilə bağlı məhkəmədə yeni iddia qaldırmışdı.

## GİORGİ MARQVELAŞVİLİ: RUSİYA BİZİ DAYANDIRMAĞI PLANLAŞDIRIR, BİZ İNKİŞAFA DAVAM EDƏCƏYİK

Gürcüstan prezidenti Giorgi Marqvelaşvili Rusiya-Gürcüstan müharibəsinin 10 illiyinə həsr olunmuş görüşdə bildirib ki, Rusiya öz planları ilə Gürcüstanı dayandırmağa çalışır, ancaq bu, ölkənin inkişafına mane ola bilməyəcək.

"Biz heç nəyə görə nə ölkənin inkişafı, nə demokratiyanın daha da dərinləşdirilməsi, nə Avropa Birliyinə və NATO-ya inteqrasiya baxımından dayanmayacağıq", - bildirib G. Marqvelaşvili.

Onun sözlərinə görə, təcavüzkarla yumşaq danışmaq pis nəticələrə səbəb olacaq. Prezientin sözlərinə görə, susduğumuz zaman özümüzə və ətrafımıza təhlükə yaradırıq.

"Təcavüzkarla yumşaq danışmaq, həqiqəti birbaşa deməmək, beynəlxalq və insan normalarının birbaşa pozulmasını, iki ölkə arasında qonşuluq əlaqələrinin bütün prinsiplərinin pozulmasını aqressiya adlandırmamaq lazım deyil. Həmin dəqiqə buna ən dəhşətli ad verilməli idi. Biz sözlərdən qorxmamalıyıq", – deyə prezident vurğulayıb.

Prezident onu da qeyd edib ki, Rusiya tərəfindən Gürcüstana göstərilən aqressiya Gürcüstanın müstəqil ölkə olmasına görədir və Gürcüstana qarşı müharibə daha əvvəl – 1992-93-cü illərdə məhz bu səbəblə başladı.

"Bu, Gürcüstana qarşı müharibə, aqressiya, işğaldır və bu, beynəlxalq hüququn tam pozulmasıdır", - deyə Gürcüstan prezidenti qeyd edib.



# Sizə qəzet lazımdırmı?

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**Ötən günlərdə köhnə tanışlarla rastlaşdım... Beş sözdən ibarət olan bu cümlə tanışlarla heç də tez-tez rastlaşmadığımdan xəbər verir. Ümumiyyətlə, çayxanalara, qumarxanalara gedən adam deyiləm. Qardabanidə də kimi istəsən çayxanalarda, qumarxanalarda tapa bilərsən. Yay vaxtı isə dincəlmək, qohum-əqrabasını görmək üçün Rusiyadan gələnlərin sayı çox olduğundan yolda, küçədə, mağazada köhnə tanışlarla tez-tez qarşılaşırıq. Yayda, əsasən də avqust ayında Qardabanidə Rusiya dövlət nişanlı maşınların da sayı artır. Xülasə, köhnə tanışlarla salamlaşıb, hal-əhval tutduqdan sonra işimlə bağlı sorğu-suala keçdilər. Teatrda aktyor və qəzet redaktoru olduğumu dedim. Sonra uzun-uzadı teatrda nə ilə məşğul olduğumu, teatrla sirkin fərqini, ümumiyyətlə, teatrın da bir iş yeri, iş olduğunu, hər ay dövlət büdcəsindən maaş almağımı izah edəsi oldum. Burda bir haşiyə çıxım. Niyəsə bizdə teatrı, redaksiyanı, film studiyasını və sair sənət ocaqlarını iş yeri saymırlar. Bunu öz şəxsi təcrübəmdən irəli gələrək yazıram. Qırağa getmirəm, qohumlarımla aramda olan bu məşhur dialoqu artıq çox adam əzbərləyib. Hər dəfə məni görəndə soruşurlar:**

– İşləyirsənmi, ay bala?
– Hə, ay xala (misalçün).
– Harda, ay bala?
– Teatrda, ay xala.
– Booy, ay bala, hələ iş tapmayıbsanmı?!

Yəni sənin işləyirəm dediyin teatr iş yeri deyil. Get özünə kişi işi tap. Türkiyəyə get, Rusiyaya get, lap Misirə get, heç olmasa buralarda beton qarışdır, alver elə, iş yox-du-yoxdu çayxanalarasa çıx, domino çırp, patrul, ya da deputat ol. Bəs nəəə! Bu qədər vaxtı universitetə ayaq döyürdün ki, teatrda işləyəsən, qəzet yazasan?..

Deyəsən mətləbdən bir az uzaqlaşdım. Nə isə, teatrda nə işlə məşğul olduğumu köhnə tanışlara izah etdikdən sonra keçdim qəzetə. Qəzetdəki funksiyamı da uzun-uzadı izah edəndən sonra illik əmək haqqımı hesablayıb, yol xərcimi, qaz, işıq, su vergilərini, əyin-baş, yemək-içmək xərclərini toplayıb, vurub, çıxdıqdan sonra maşınımın olub olmadığını soruşdular. "Yox" cavabından sonra keçdilər "indi qəzet oxuyanmı var", "kimə lazımdır qəzet", "nəyə görə buraxırsız qəzeti", "vaxtınızı və pulunuzu boşa xərcləyirsiz" və bu kimi "ağıllı" məsləhətlərə.

Biz niyə qəzet çıxarırıq?.. Yuli Sezarın dövründən günümüzə kimi təkmilləşərək gəlib çıxan, hətta virtual mediaya məğlub olmayan qəzet çapı bizə nə verir? Ümumiyyətlə, qəzet oxuyan varmı? Nəyə görə Həsən bəy Zərdabi kimi ziyalılarımız qəzet çap etmək üçün illərlə səy göstərib, əmək sərf etmişlər? Bu gün adını yalnız maşınının nömrəsinə yaza bilənlərin "qəzet kimə lazımdır" demələri üçünmü? Yox, əzizlərim, siz gəldi-gedərsiz, qəzetsə həmişə olub və olacaq. Bəzən şikayətlənirik ki, biz qəzet oxumuruq, amma bu işə girişəndən sonra bu fikrin yalnış olduğunu gördüm. Çünki redaktoru olduğum "Yeni YOL" qəzetinin paylanması bir gün gecikəndə oxucular zəng edib narahatçılıqlarını bildirirlər ki, qəzet niyə gəlməyib. Bu sevindirici haldır. Qəzetimiz Azərbaycandilli oxucuların çox olduğu bölgələrə pulsuz paylanır. Çünki məqsədimiz maarifçilikdən başqa bir şey deyil, pul qazanmaq məqsədi ilə qəzet çıxarsaq biz də məktəblərdə müəllimlərə, şagirdlərə zorla qəzet satardıq. Özümüzü tərifləmək olmasın, amma bu gün Gürcüstanda Azərbaycan dilində "Yeni YOL" qəzeti səviyyəsində qəzet yoxdur. Ölkədə baş verən siyasi, iqtisadi hadisələri, yenilikləri, təhsil sahəsindəki reformaları, qanunlayihələri gürcü dilindən tərcümə edərək əhalimizə biz çatdırırıq. Fikrini yazı halına sala bilən, deməyə sözü olan istedadlı gənclərimiz üçün "Yeni YOL" bir tribunadır. Biz baş sağlığı, tərifnamə və mədhiyyə dərc etmirik. Biz məhz əhaliyə lazım olan məlumatları dərc edirik. Heç bir təmənna güdmədən. "Qəzet kimə lazımdır" deyənlər zəhmət çəkib təşkilatlara, dərnəklərə, məktəblərə getsinlər, qəzet oxuyan əhali arasına çıxsınlar. O zaman qəzetin kimə lazım olduğunu biləcəklər. Bizə qəzet, jurnal, kitab, teatr, məktəb, universitet lazım deyilsə, bəs görəsən nə lazımdır? Bu sualın cavabını da yəqin adını yaza bilməyən, amma maşınının nömrəsinə az qala soyadını da yazdıranlar bilər.

**Qəzet həm də bir mədəniyyətdir. Deməyə sözü olmayan millətin qəzeti olmaz, jurnalı olmaz, kitabı olmaz.**

## PREZİDENT "YIĞIM PENSİYASI HAQQINDA" QANUNU İMZALAYIB



Gürcüstan prezidenti Giorgi Marqvelaşvili "Yığım pensiyası haqqında" qanunu imzalayıb. Qanunlayihəyə əsasən, pensiya islahatlarına qoşulmaq 40 yaşına qədər olan şəxslər üçün məcburi, 40 yaşdan yuxarı şəxslər üçün isə könüllü olacaq.

Qeyd edək ki, Gürcüstan Maliyyə Nazirliyi Pensiya Agentliyinin direktoru vəzifəsinə artıq vakansiya elan edib. Seçilən namizədin əmək haqqı 10 mindən 15 min lariyə qədər olacaq.

Qanun bir neçə maddə istisna olmaqla yayımlanan kimi qüvvəyə minib. Yığım pensiya sisteminin idarə olunmasında və pensiya islahatında iştirak etmək haqqında maddələr 2019-cu ilin 1 yanvarından qüvvəyə minəcək.

## II İLYA: NARKOTİKDƏN İSTİFADƏYƏ İCAZƏ VERİLMƏSİ MİLLƏTƏ QARŞI DÜŞMƏNÇİLİKDİR



Gürcüstanın katolikosu II İlya Konstitusiya Məhkəməsi tərəfindən marixuananın istifadəsi ilə bağlı qəbul edilmiş qərara rəy bildirərək narkotikdən istifadəyə icazə verilməsini düşmənçilik adlandırıb.

"Marixuananın qəbul edilməsinə icazə verildi. Bu böyük səhvdir. Biz bilməliyik ki, narkotik bir səviyyədə dayanmır, vaxt keçdikcə insan təbiəti daha ağır narkotik tələb edir. Bu düşmənçilikdir. Yadımızda saxlamalıyıq ki, narkotikdən istifadəyə icazə vermək bizim millətə qarşı düşmənçilikdir.

Əminən, həmin icazəni çıxaran adamlar özləri də razı deyillər, amma onlara təsir o qədər böyükdür ki, bu qərarı vermək məcburiyyətində qaldılar.

Unutmamalıyıq ki, narkotikə icazə veririksə narkotik alveri və narkotikin gətirilməsinə də yol verməliyik. Əsası isə odur ki, bu, qonşu ölkələrdən gənclərin gəlməsinə səbəb olacaq. Qonşu ölkələrdə həyat çarxından çıxmış gənclərin hamısı Gürcüstana gələcək və narkotika mərkəzi yaranacaq.

Ona görə də, hamıya müraciət edirəm, ilk növbədə hakimiyyətə, ziyalılar və gənclərə. Vətənimizi, övladlarımızı qoruyaq. Biz bilməliyik ki, narkotikadan hər istifadə uçurumun başlanğıcıdır. Xahişlə sizə müraciət edirəm, övladlarınızı məhv etməyin, bu qanunsuzluğa yol verməyin. Allah sizə güc və müdriklik versin", - deyə patriarx bildirib.

Qeyd edək ki, Konstitusiya Məhkəməsinin birinci kollegiyası 30 iyulda Zurab Caparidze və Vaxtanq Meqrelişvilinin konstitusional şikayətinə bəraət qazandırıb. Nəticədə narkotik vasitə olan marixuanadan istifadə etmək leqallaşdı. Qeyd olunan qərardan sonra bəzi dini şəxslər Konstitusiya Məhkəməsinin ləğv olunması tələbi ilə çıxışlar etdilər.

## DİNİ VƏ YA BAŞQA SƏBƏBLƏ HƏRBİ XİDMƏTDƏN YAYINANLARA YANVARIN 1-DƏN ALTERNATİV XİDMƏT TƏKLİF OLUNACAQ



Dini və ya başqa səbəblərdən hərbi xidmətə getmək istəməyən şəxslərə 1 yanvar tarixindən alternativ xidmət təklif olunacaq. Belə şəxslər hərbi xidməti Fövqəladə halların İdarə olunması üzrə Xidmətdə yerinə yetirə biləcəklər. Fövqəladə halların idarə olunması üzrə xidmətin rəhbəri vəzifəsini yerinə yetirən Şalva Xutsişvilinin məlumatına görə, alternativ xidmətə başlamaq üçün çağırılan şəxslər istəyindən əlavə başqa meyarları da qane etməlidirlər.

"Vətəndaşın hərbi xidmətə getməməsi və alternativ xidmətdə öhdəliyini ödəmə istəyi olmalıdır. Burada həmçinin, vətəndaşın qane etməli olduğu müəyyən sağlamlıq göstəriciləri də var. Alternativ xidmətə dini və ya başqa səbəblərdən hərbi xidmətə getmək istəməyən şəxslər düşəcəklər. Alternativ hərbi xidmət məcburi xarakter daşımayacaq və xidmətə çağırılan şəxslərin istəyinə bağlı olacaq. Alternativ xidmət 1 yanvardan qüvvəyə minəcək və gələn ilin çağırış zamanı vətəndaşlara qeyd olunan alternativ əlçatan olacaq. Bizim bir neçə ay müddətimiz var ki, bu metodun uğurla qüvvədə olduğu ölkənin mütəxəssisləri ilə birgə çalışaq", - deyə Şalva Xutsişvili bildirib.

## RƏCƏB TAYYİB ƏRDOĞAN: ABŞ TÜRKİYƏNİ YENİ MÜTTƏFİQLƏR AXTARMAĞA VADAR EDİR



ABŞ-ın Türkiyəyə qarşı atdığı birtərəfli addımlar sadəcə Amerikanın maraqlarına zərbə vurur və Ankaranı yeni müttəfiqlər axtarmağa məcbur edir. Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan "The New York Times" qəzetində dərc olunan "Türkiyə ABŞ-la böhranı necə görür" başlıqlı məqaləsində yazıb.

"Şərin bütün dünyada pusquya yatdığı bir dönəmdə müttəfiqimiz ABŞ-ın Türkiyəyə qarşı atdığı birtərəfli addımlar sadəcə Amerikanın maraqlarına və təhlükəsizliyinə zərər vurur. Çox gec olmadan Vaşinqton münasibətlərimizin asimmetrik ola biləcəyi barədə səhv mülahizələrini bir kənara qoymalı və Türkiyənin alternativlərə sahib olduğunu qəbul etməlidir. Bu birtərəflilik və hörmətsizlik trendindən dönməzlərsə, yeni dostlar və tərəfdaşlar axtarmağa başlayacağıq", - deyə Ərdoğan vurğulayıb.

Onun sözlərinə görə, son illər fikir ayrılıqları hər iki ölkənin münasibətlərinin möhkəmliyini sınağa çəkir, Türkiyənin bu tendensiyanı dəyişmək səyləri nəticəsiz qalır. "Əgər Birləşmiş Ştatlar Türkiyənin suverenliyinə hörmətlə yanaşmasa və xalqımız qarşısında duran çağırışları anladığını isbat etməsə, bizim tərəfdaşlığımız təhlükə altına düşə bilər", - Türkiyə lideri belə hesab edir.

İki ölkənin münasibətləri ABŞ prezidenti Donald Trampın Türkiyədən idxal olunan alüminium və polada rüsumları müvafiq olaraq 20 və 50 faiz artırmaq barədə qərarından sonra daha da kəskinləşib. Bu qərar türk lirəsinin dollara nisbətdə kəskin ucuzlaşmasına səbəb olub.

## XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU HAQQINDA KONVENSİYA İMZALANIB




Avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında sənədlərin imzalanması mərasimi olub.

Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı Azərbaycan prezidenti İlham Əliyev, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Rusiya prezidenti Vladimir Putin, İran prezidenti Həsən Ruhani və Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov imzalayıblar.

Bundan əlavə, Xəzəryanı dövlətlərin müvafiq qurumlarının rəhbərləri tərəfindən bu Konvensiyadan irəli gələn digər mühüm sənədlər - Xəzər dənizində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol, Xəzəryanı dövlətlərin hökumətləri arasında ticari-iqtisadi əməkdaşlıq haqqında Saziş, Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Saziş, Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında Saziş və sərhəd xidməti idarələrinin əməkdaşlığı və qarşılıqlı əlaqələri haqqında Protokol imzalanıb.

## MERKEL GÜRCÜSTANA SƏFƏR EDƏCƏK



Almaniya kansleri Angela Merkel Gürcüstana rəsmi səfər edəcək. Gürcüstan Xarici İşlər Nazirliyi səfərin avqustun 23-24-də baş tutacağını bəyan edib. Səfərin proqramı yaxın günlərdə dəqiqləşdiriləcək.

Qeyd edək ki, bu, A. Merkelin kansler olaraq Gürcüstana ikinci səfəridir. Xatırladaq ki, ilk səfər 2008-ci ildə baş tutub.

## RUMINİYA MİLLİ HAVA YOLLARI BAKI, TBİLİSİ VƏ ODESSAYA UÇUŞLARA BAŞLAYIR

Rumıniyanın milli hava yolları TAROM Şərq istiqamətində Bakı, Tbilisi və Odessaya uçuşlara hazırlaşır.

Bu barədə dünyada müxtəlif hava yollarında baş verən yenilikləri izləyən airlineroute.net internet portalında xəbər verilib. Uçuşlar gecə yerinə yetiriləcək. Portalın məlumatına əsasən, Odessa və Tbilisi uçuşları həftədə iki dəfə olmaqla sentyabrdan etibarən başlayacaq. Bu uçuşlar "ATR-72" və "A318" təyyarələri ilə yerinə yetiriləcək. Bakıya uçuş isə "Boeing 737-300" təyyarəsi ilə oktyabrın 31-dən etibarən hər cümə axşamı və çərşənbə axşamı həftədə iki dəfə həyata keçiriləcək.

Biletlərin satışı artıq qlobal bilet ticarəti ilə məşğul olan şirkətlərin internet səhifələrində yerləşdirilsə də, TAROM hələ ki, biletlərin satışına öz şəbəkəsi vasitəsilə başlamayıb.

## QURBANINIZ QURBAN OLA



Hacı BƏKİROĞLU
*hacibakir@mail.ru*

**Dini bayramlarımızdan ikincisi olan Qurban bayramı gəlib çatmaqdadır. Bildiyiniz kimi avqust ayının 21-i müqəddəs və mübarək Qurban bayramı günüdür. Qurban həm bədən, həm də mal ilə edilən bir ibadətdir. Müsəlman aləmində də bayram olaraq qeyd olunmaqdadır. Bizlər üçün böyük bir xoşbəxtlikdir ki, belə gözəl bayramlarımız var.**

Qurban kəlməsinin ərəbcədən qarşılığı "yaxınlaşma" mənasına gəlməkdədir, yəni bəndəni Allaha yaxınlaşdıracaq ibadətdir. Bilirsiniz, Cənabı-Haqqın dostu olma şərəfi ilə şərəflənmiş bir peyğəmbər olan İbrahim (ə.s.) bir əhd etmiş, bir oğlu olması halında onu Allaha qurban edəcəyini söyləmiş. Aradan keçən zaman içərisində oğulları olmuş, amma o, əhdini necə olmuşsa unutmuşdur. Yuxuda oğlunu qurban etdiyini görmüş və diksinmişdir. Hz. İbrahim bu yuxunu üç gecə görmüşdür. Peyğəmbərlərin yuxusu vəhy olduğu kimi, onlar tərəfindən edilən təbirləri də vəhydir. İbrahim (ə.s) də yuxusunu, oğlunu qurban etməsi lazım olduğu şəklində təbir etmiş və beləcə bu təbir də vəhy olmuşdur. Artıq Hz. İbrahimin bu vəhyi yerinə yetirməsi lazım idi. Allah bu tərəddüdsüz itaətin qarşılığı olaraq isə oğlunun yerinə bir qoç kəsməsinə icazə verər. Bugünkü qurban ibadətinin başlanğıc nöqtəsi budur. Bu, Allahın insanlığa böyük bir lütfüdür. Allah insanları Hz. İbrahimin vasitəçiliyi ilə insanı qurban etməkdən qorumuş olmasaydı ehtimalla insanlar insan qurban etmə kimi qorxunc bir ənənəyə sahib ola bilərdi və insanları bu qorxunc ənənədən kimsə də qurtara bilməzdi.

Buradan da göründüyü kimi qurban bir səmimiyyət işidir.

Qurban – insanın Allaha yaxınlaşmasına və Onun razılığını qazanmasına vəsilə olan bir ibadətdir. "Qurban" sözündə bu məna vardır. İnsan qurban kəsməklə İbrahim (ə.s.) kimi Allaha və Onun əmrlərinə bağlılığını, lazım olsa Onun razılığını qazanmaq üçün hər fədakarlığa dözəcəyini göstərmiş olar.

Allahın məmnuniyyətini qazanmaq üçün edilən hər şeydə əsas olan yaxşı niyyətdir. Qurbanda da belədir, yaxşı niyyət və ixlas əsasdır. Baxın, bu mövzuda Qurani-Kərimdə belə buyurulur:

"Onların (qurbanların) nə ətləri, nə də qanları Allaha çatar. Lakin Ona yalnız sizin təqvanız çatar". Allah-Təala ancaq təqva sahiblərinin etmiş olduqları ibadətləri qəbul edər.

Qurban kəsərkən bu beş xüsusa diqqət etməyimiz lazımdır:

1. Qurban ediləcək heyvanlardan: qoyun, keçi 1 yaşını, dana və ya camış 2 yaşını, dəvə isə 5 yaşını doldurmuş olması lazımdır. Xəstə, zəif, kor, şikəst kimi qüsurları və ya hər hansısa bir orqanı əskik olan heyvanlardan qurban edilməz. Qurban olaraq kəsiləcək heyvanlar mütləq sağlam olmalıdır.
2. Qurban kəsimindən öncə heyvanın kəsiləcəyi yerin seçilməsi, təmizlənməsi və xüsusilə də bıçağın iti olmasına diqqət edilməlidir.
3. Qurbanlıq heyvanı kəsim yerinə apararkən heyvana əziyyət edilməməlidir. Əksinə onu şəfqətli bir şəkildə aparmaq lazımdır, çünki bizim Allaha yaxınlaşma səbəbimiz odur.
4. Ən əhəmiyyətli xüsuslardan biri də heyvanın ayağının bağlanmasıdır. Öncə heyvan qibləyə doğru yerə yatırılmalı, sonra isə iki ön ayaqları arxaya doğru bükülüb, sol arxa ayaq da bu iki ayağın arasına qoyulub incitmədən bağlanılır. Arxa sağ ayaq sərbəst buraxılır. Əgər həmin yerdə kəsilmiş başqa heyvan varsa, o zaman kəsiləcək heyvanın gözləri də bağlanmalıdır.
5. Qurbanlıq heyvan kəsilmək üçün hazırlandıqdan sonra "Mən üzümü tamamən göyləri və yeri yoxdan var edənə çevirdim və artıq mən əslа Allaha ortaq qoşanlardan deyiləm" (Ənam-79) və "De ki: mənim namazım, ibadətim, həyatım və ölümüm aləmlərin rəbbi olan Allah üçündür" (Ənam-162) ayələri oxunduqdan sonra Allahu əkbər, Allahu əkbər, ləə iləhə illəllah, vallahu əkbər. Allahu əkbər və lilləhil həmd, deyilərək heyvan bir dəfədə kəsilir.

**Biz də qarşıdan gələn Qurban bayramı münasibəti ilə həm oxucularımızı, həm də İslam aləmini təbrik edir, kəsəcəkləri qurbanların qəbul olunmasını uca Allahdan niyaz edir, Qurbanınız Qurban ola deyirik.**

# ÇANAĞINDAN ÇIXIB ÇANAĞINI BƏYƏNMƏYƏNLƏR VƏ YA 17 İLƏ ÖYRƏDİLƏ BİLMƏYƏN DİL

**Bir neçə il öncə bir qrup gənc Gürcüstanın baş nazirinə açıq məktub ünvanlamışdılar. Cəsarətli addım idi, ancaq və lakin... Məktubda Azərbaycan məktəblərinin bağlanması, təhsilin gürcü dilində olması (Azərbaycan dilinin hər gün 1 saat tədris olunması istisna olmaqla) xahiş deyil, TƏLƏB edilirdi, belə bir addımın Gürcüstan azərbaycanlılarının cəmiyyətə inteqrasiyasına müsbət təsir etməsi əsaslandırılırdı. Xəyallar gerçəkləşir, statistika, faktlar öz-özünə danışır: 2008-2009-ci illərdə Gürcüstandakı Azərbaycan məktəblərinin sayı 124 idisə, 2017-2018-ci illərdə 82 Azərbaycan məktəbi qalmışdır, 2026-2027-cı illərdə isə gözlənti 40 Azərbaycan məktəbidir.**



Gəlin Gürcüstan dövlətinin etnik azərbaycanlılar üçün yaratdığı imkanları nəzərdən keçirək. Gürcüstanda orta təhsil 12 ildir. 12 il ərzində hər gün orta məktəbdə gürcü dili tədris edilir, dərs saatları 15-20 il bundan əvvəlki şəraitlə müqayisədə kifayət qədər artırılıbdır. Gürcüstanda 1-ci sinfə gedən bütün şagirdlərə, şəhərdə, ucqar kənddə yaşamasından asılı olmayaraq dövlət kompüter (netbook) verir. Kompüter şagirdlərə "facebook"-da qeydiyyatdan keçib, şəkillər yükləyib "like"ları saymaq üçün verilmir. Kompüterdə gürcü, ingilis, riyaziyyat, rəsm və s. fənləri daha dərindən və daha asanlıqla mənimsəmək üçün xüsusi proqramlar yüklənib.

Sovet İttifaqı dağılandan sonra ölkədə iqtisadi, sosial, siyasi böhran yaşanırdı, dərsliklər bir nəfərə çatanda digərinə çatmırdı. İndi isə dərsliklər pulsuz verilir. Azərbaycan dilində tədris olunan fənlərlə (tarix, coğrafiya, riyaziyyat və s.) bağlı dərsliklərin 30%-i gürcü dilindədir. Yəni şagird 12 il ərzində gürcü dili fənnini dövlət dili kimi öyrənir, üstəlik Azərbaycan dilində öyrəndiyi digər dərsliklərin 30%-ni gürcü dilində öyrənir (tarix, coğrafiya, riyaziyyat və s. dərsliklər sırf Azərbaycan dilində deyil, gürcü dilində qısa xülasəsi də verilib).

Qayğıkeş Təhsil Nazirliyi etnik azlıqlar üçün orta məktəblərdə gürcü dilini daha da yaxşı öyrənmək üçün başqa bir yol da fikirləşib. Xüsusi təlim keçmiş gürcü dili müəllimləri orta məktəblərə gürcü dili tədrisini təkmilləşdirmək üçün göndərilir (həmin müəllimlər adi müəllimlərlə müqayisədə yüksək maaşla da təmin edilir).

12 il ərzində gürcü dilinin tədrisinə və dərs saatlarının artırılmasına baxmayaraq, dərsliklərin 30%-nin gürcü dilində olmasına baxmayaraq, xüsusi təlim keçmiş müəllimlərin səyinə baxmayaraq yenə də gürcü dilini öyrənə bilməyən və bu dəfə artıq abituriyentlər üçün qayğıkeş dövlət "1+4" proqramını fikirləşib hazırladı. Yəni tələbə 1 il müddətində yalnız gürcü dilini öyrənir (haşiyə: xarici dili 6 aya öyrənməyə söz verən nə qədər kurslar tanıyırsınız, deyilmi?), sonra isə bakalavr pilləsində təhsilini digər gürcü tələbələrlə eyni masa arxasında, eyni auditoriyada davam etdirir. Sağ olsun SOCAR, Gürcüstanda tək bakalavr pilləsində 4 il ərzində oxuyanların deyil, hazırlıqda oxuyanların da təhsil haqqını verir, çökməkdə olan evin sütununa dirək olur. Əslində çox böyük bir köməklikdir. Gürcüstanda sosial vəziyyəti çətin olan, bununla belə övladını ali təhsilli görmək istəyən, ancaq təhsil haqqını ödəməyə imkanı olmayan ailələr və belə ailələrdə savadlı, potensiallı gənclər də çoxdur (haşiyə: təəssüf ki, bu imkanlardan yararlanmağa ərinən, dərslərə, imtahanlara laqeyd yanaşanlar da az deyil).

Gəlin, indi də riyazi biliklərimizi imtahana çəkək: 12 il orta məktəb, 1 il hazırlıq, 4 il bakalavr = 17 il. İndi bu yazdıqlarımı oxuyan öz-özünə düşünəcək ki, görəsən bu Borçalı camaatı nə yeyib-içir ki, 17 il ərzində bu qədər imkanlarla bir dili öyrənə bilmir??? Hələ internetin, yeni texnologiyanın, smartfonların yaratdığı imkanları bir kənara qoyaq (onlayn dil öyrənmə imkanları, lüğətlərin smartfonlara yüklənməsi, TV və s.).

Bəlkə məsələnin kökünə varmaq lazımdır, problemin nədə olmasını araşdırmaq lazımdır. Dövlət etnik azlıqlar üçün bu qədər imkanlar yaradır. Elə Azərbaycan məktəbləri var ki, orada gürcü dili fənnini gürcü tədris edir (təsəvvür edin ingilis dilini bu dilin doğma daşıyıcısı olan ingilisdən, amerikanlıdan öyrənirsiniz). Bir dəfə sual verən olmur ki, bəs bu müəllimlər sinfə daxil olanda nə işlə məşğul olurlar, 12 ilini nəyə sərf edirlər??? Təhsil nazirliyi nə üçün tez-tez yoxlamalar, monitorinqlər aparmır???

Bizim gənclər baş nazirə məktub yazanda bəlkə elə bunları qeyd etmək lazım idi ki, dövlətimiz etnik azlıqlar üçün bu qədər qayğı göstərir, çalışır, bəlkə arada bir monitorinqlər də aparılsın. Bu məsələni TƏLƏB etməyə haqqımız olsa da, xahiş də edib məktubda yazmaq olardı.

Əlbəttə bu gün dövlətin bu səylərinin nəticəsi var, gürcü dilini gürcüdən də gözəl bilən gənclərimiz var, imtahanlarda gürcüdən də yaxşı nəticə əldə edən gənclərimiz var, gürcü dilində danışanların sayı gənclər arasında ilbəil artır (yaşlı nəslin nümayəndələrini nəzərə almıram, onları qınamağa, mühakimə etməyə haqqımız da yoxdur, çünki onların dövründə bir VƏTƏN var idi – SSRİ, hər yerdə də istifadə olunan dil RUS dili idi).

Bütün bunlarla yanaşı orta məktəblərdə ciddi monitorinqlər olsa, gürcü dilini tədris edən müəllimlər VİCDANla dərs keçsələr şagirdlərin orta məktəbi bitirdikdən sonra 1 il hazırlıqda oxumasına qətiyyən ehtiyac qalmaz!

Azərbaycan məktəblərinin saxlanılması, ANA dilində təhsil hava-su qədər vacibdir. Fədakar ziyalımız Həsən bəy Zərdabi demişdir: "Bir millətin ki, dili batdı, onda o millətin özü də batar. Çünki bir millətin varlığına, isbati-vücud etməsinə səbəb onun dilidir".

ANA dilini nəinki qoruyub saxlamaq, baş nazirə ünvanlanan məktubda Azərbaycan dilinin ikinci dövlət dili olmasını TƏLƏB etmək lazım idi, nəinki Azərbaycan məktəblərinin bağlanmasını. 3.5 milyonluq Gürcüstan əhalisinin yarım milyonunu etnik azərbaycanlılar təşkil edir. Bu gün İsveçrə kimi dünyanın ən inkişaf etmiş ölkəsində insanlar 4 rəsmi dildə danışırlar. 4 rəsmi dil İsveçrəyə yaşayış səviyyəsinə, iqtisadi inkişafına və digər göstəricilərinə görə bütün reytinq cədvəllərində 1-ci yerdə qərarlaşmasına heç də mane olmur.

Milli dəyərləri qoruyub saxlamaq lazımdır, milli dəyərlərə sahib çıxmaq lazımdır. Gənclərə yeganə tövsiyyəm budur ki, heç vaxt heç kimə Sizləri MANİPULYASİYA etməyə imkan verməyin! Həyat insana bir dəfə verilir, həyat çox qısadır, amma bu həyatı şərəflə, namusla, qeyrətlə, heç kəsin buyruqqulu olmadan yaşamağa dəyər!

Elm, bilik, savadla silahlanıb, sonra da həmin SİLAHI öz millətimizin nümayəndələrinə qarşı yönəltməyin, əziz gənclər. Buna görə tarix sizi heç vaxt bağışlamaz!

Aygül İSAYEVA
*İqtisadiyyat üzrə fəlsəfə doktoru*

# İKİNCİ TİP ŞƏKƏRLİ DİABETİN MÜALİCƏ MEDİKAMENTLƏRİNİ AVQUSTUN 13-DƏN ENDİRİMLƏ ƏLDƏ ETMƏK MÜMKÜN OLACAQ

Səhiyyə Nazirliyi xroniki xəstəlikləri olanlar üçün müalicə medikamentləri ilə təmin etmə proqramını genişləndirir. Bu haqda səhiyyə naziri David Sergeenko nazirlikdə baş tutan mətbuat konfransında bildirib. D. Sergeenkonun bildirdiyinə görə, layihəyə əsasən, ikinci tip diabetin müalicə medikamentləri 13 avqust tarixindən əvvəlkindən daha çox əlçatan olacaq və bütün əhali üçün endirim qüvvədə olacaq.

Nazirin izahatına əsasən, imkansız sakinlər üçün tibbi xərclərin azalmasını nəzərdə tutan proqrama bütün apteklər qoşulacaq.

"Ötən il biz yalnız sosial müdafiəsizlərə aid olan və əsasən xroniki xəstəliklərin müalicəsinə aid olan preparatları əhatə edən layihəyə başladıq. Aydındır ki, bu yetərli deyil və layihə genişlənməyə ehtiyac duyur. Sosial müdafiəsizlərin deyil, eləcə də pensioner və fiziki məhdud insanların da yüksək maddi barierləri var. Ona görə də, biz bir neçə addım atdıq. May ayından medikamentlərin ucuzlaşmasına dair birinci mərhələ başladı və avqustun 13-dən sonra növbəti mərhələ də başlayacaq. Əhali arasında davamlı olaraq araşdırmalar aparırıq ki, hansı növ mediakmentlərə maddi çətinlik var və hansı dərmanlar daha çox istifadə olunur. Bir neçə prioritet var, ancaq ən vacibi ikinci tip diabetdir (Birinci B tip diabetdir və "insulin" lazımdır, ikinci tip diabetə həblər lazımdır). Əhalinin ən çox ikinci tip diabetə dair maddi yükü var. Üç əsas medikament ikinci tip diabetə kömək edir, bunlar: "Metformin", "Qliklazid" və "Qineplid"dir. Əhali 13 avqustdan "Medformin"i yarı qiymətə ala biləcək. Bu birinci addımdır ki, dövlət öz maddi resursunu xərcləmədi, öz reputasiya müdaxiləsini həyata keçirdi. Bu, özünü onda göstərdi ki, xüsusi layihədir, istehsalçılar vacib dərəcədə qiymətləri ucuzlaşdırdılar və bu üç medikamentə dair əhalinin maddi barieri var. Qeyd olunan medikamentlərə əhali ildə 10 milyon xərcləyirdi, bu intervensiyadan sonra artıq 5 milyon xərclənəcək. Yenə qeyd edirəm ki, kateqoriyalara baxmayaraq bu hamıya aiddir", - David Sergeenko bildirib.

Bundan əlavə David Sergeenkonun izahatına görə, 1 sentyabrdan proqramın ikinci mərhələsi qüvvəyə minəcək. Proqram pensionerlərin və fiziki məhdud şəxslərin medikamentləri ucuz qiymətə əldə etməsini təmin edəcək. Sergeenkonun dediyinə görə, layihəyə əsasən, qeyd olunan şəxslər indiyə qədər aldıqları dərmanları yetərli dərəcədə ucuz qiymətə əldə edə biləcəklər.

"Pensionerlər üçün isə 1 sentyabrdan bu üç medikamenti subsidləşdirmə edəcəyik və qiyməti daha da ucuzlaşdıracağıq. Həmçinin ürək-damar sisteminə dair müalicə preparatlarını genişləndirəcəyik. Bundan əlavə bu il ərzində artıq növbəti addım xroniki xəstəliklərin medikamentlərini pensioner və fiziki qüsurlu insanların da ucuz qiymətə əldə etməsini təmin etməkdir. Hal-hazırda bu istiqamətdə yalnız sosial müdafiəsizləri maliyyələşdiririk. Pensionerlərin də əhəmiyyətli dərəcədə maddi yükü azalacaq", - deyə nazir qeyd edib.

Nazirin sözlərinə görə, araşdırma aparılır ki, pensionerlər preparatları almaq üçün nə qədər məbləğ sərf edirlər. Sergeenkonun izahatına görə, dəqiq statistik analizə əsasən məlum olur ki, pensionerlər medikamentlərə orta hesabda bir ay ərzində 50-60 lari xərcləyirlər. Bu layihəyə əsasən isə maddi yük əhəmiyyətli dərəcədə azalacaq.

# MÜƏLLİM OLMAQ İSTƏYƏNLƏRİN NƏZƏRİNƏ: BAŞLANĞIC PİLLƏNİN MÜƏLLİM PROQRAMLARI AKREDİTASİYA ALIB

**Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzin rəsmi veb səhifəsində yerləşdirilmiş akreditasiya şurasının protokolları ölkənin 8 ali təhsil müəssisəsinin – İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti, İlya Dövlət Universiteti, Şota Rustaveli adına Batumi Dövlət Universiteti, Samtsxe-Cavaxeti Dövlət Universiteti, Akaki Tsereteli Dövlət Universiteti, Qori Dövlət Universiteti, İakob Qoqebaşvili adına Telavi Dövlət Universiteti və Soxumi Dövlət Universiteti – müəllimlərin hazırlığı üçün magistr-ibtidai pillə üzrə müəllim proqramlarına akreditasiya əldə etdiyini təsdiqləyir.**

**Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzin direktoru Tamar Sanikidze bu yenilik haqqında şərh verib:**



"Yeni proqramlar daxilində 8 universitet ibtidai pillə müəllimləri üçün proqram hazırladı və daxil etdi. Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin sərəncamında mövcud olan qeyd mərkəzə imkan verir ki, bu proqramları anketlərə əlavə edək. Hal-hazırda həmin anketlərə dair razılıq gedir. Müvafiq olaraq tələbələrin qəbulu, mobillik yeni tədris ilindən daha da təkmilləşdirilmiş proqramlar çərçivəsində mümkün olacaq. Qeyd olunan proqram çərçivəsində daha yüksək kvalifikasiyalı pedaqoqlar hazırlamalıyıq. Daxil olan proqramlar indiyə kimi mövcud olan proqramlardan çox fərqlidir. Proqramın yalnız fənnin tədrisinə istiqamətlənməsi və fənnin tədris strategiyası və metodologiyasını əhatə etməsi faktı çox yaxşıdır. Bir illik təcrübənin yaranması olduqca əhəmiyyətlidir ki, təcrübənin nə qədər effektli planlaşdırılmasını görək. Düşünürəm ki, yeni proqramlar daha yaxşı və kvalifikasiyalı müəllimlər hazırlamağa imkan yaradır.

Xüsusilə qeyd olunmalıdır ki, bu istiqamətdə daxil olan bütün proqramlar akreditasiya qazanıb. Mərkəzlə konsultasiya rejimində hazırlıq prosesi gedirdi. Proqramlarda müəyyən səhvlər var idi, amma avtorizasiya üçün mane olacaq səviyyədə deyildi. Universitetlər rekomendasiyalar aldılar, onların intervensiyasına dair monitorinq aparacağıq və ümid edirik ki, proses yaxşı nəticə verəcək."

**– Bu istiqamətdə daha hansı yenilik gözlənilir?**

– Gözləyirik ki, universitetlər artıq baza və orta pillənin müəllimlərinin fənn proqramlarını göndərsinlər. Bu proqramlar üzərində çalışmalara başlanılıb. Çox yaxşıdır ki, ilk növbədə məhz ibtidai sinif müəllimlərinin proqramını təqdim ediblər, çünki ən böyük çatışmamazlıq bu sahədədir. Avtorizasiya-akreditasiya məsələləri adi rejimdə gedir, avqustun sonunda şurada bir neçə vacib məsələnin müzakirəsi olacaq.

**– Anons edilmiş geniş təhsil reformasına dair hazırlıq prosesinə qoşulmusunuz ya yox?**

– Təbii ki, mərkəzimizin səlahiyyətləri çərçivəsində. Bu istiqamətdə müəyyən təcrübə toplamışıq və iş üçün bu nə dərəcədə xeyirli olacaqsa, biz hazırıq.

*Gürcü dilindən tərcümə:*
*Aynurə ƏLİYEVA*

## YENİ TƏDRİS İLİNDƏN ŞAGİRDLƏR AVQUST MÜHARİBƏSİ QƏHRƏMANLARININ TARİXÇƏSİNİ ÖYRƏNƏCƏKLƏR

2018-2019-cu tədris ilindən məktəblərin bir hissəsində şagirdlər Avqust müharibəsi qəhrəmanlarının tarixçəsini öyrənəcəklər. Qeyd olunan tarixçələr yeni fənn olan "Müdafiə və təhlükəsizlik" dərsliyinə daxil olacaq. Bu haqda Təhsil Nazirliyinin Milli Tədris Planı üzrə İdarəçiliyinin mülki təhsil eksperti Şalva Mekravişvili məlumat verib.

Onun sözlərinə görə, layihə birinci mərhələdə pilot olacaq, gələn ildən isə 7-ci və 12-ci siniflər üçün yeni standart qüvvəyə minəcək. Qeyd olunan fənn məcburi də ola bilər.

Ş. Mekravişvilinin sözlərinə görə, "Müdafiə və təhlükəsizlik" dərsliyi Təhsil və Müdafiə Nazirliklərinin birgə layihəsidir. Dərslik üzərində çalışmalar artıq başa çatıb və nəşr üçün hazırlanır.

Ş. Mekravişvilinin bəyanatına əsasən, kitaba 2008-ci ilin Avqust müharibəsi ayrı mövzu olaraq daxil edilib, həmçinin Gürcüstanın müasir milli qəhrəmanları və Avqust müharibəsi qəhrəmənlarının tarixçəsi ətraflı yazılıb.

"Müdafiə və təhlükəsizlik" fənni onuncu sinif şagirdləri üçün nəzərdə tutulacaq.

İndiki mərhələdə məktəblərdə 2008-ci ilin Avqust müharibəsi 9-cu sinifdə, Gürcüstan tarixi fənninin çərçivəsində tədris olunur. Müharibə qəhrəmanları haqqında isə orada söhbət getmir.

2019-2020-ci tədris ilində məktəblərə 7-dən 12-ci sinfə qədər məzmun baxımından yenilənmiş kitablar daxil olmalıdır. Kitablar yenilənmiş milli tədris planına əsasən tərtib olunub.

## AZƏRBAYCAN MƏKTƏBLƏRİNƏ BU İL DƏ YENİ DƏRSLİKLƏR VERİLMƏYƏCƏK

Gürcüstanın Təhsil və Elm Nazirliyinin məlumatına görə, 2018-ci ilin yeni tədris ilində qeyri-gürcüdilli məktəblər yeni dərsliklər ala bilməyəcəklər. Bu haqda nazir müavini Teymuraz Murğulia bildirib.

"Mülki İnteqrasiya və Millətlərarası Əlaqələr Mərkəzi"nin məlumatına görə, 2013-cü ilin araşdırmasına əsasən, Gürcüstanda 213 qeyri-gürcüdilli məktəb və 77 sektor olub. Bunlardan 85 məktəb tamamilə Azərbaycandilli, 11-i rusdilli, 117-si isə ermənidilli məktəbdir. 2014-cü ilin göstəricilərinə əsasən, bu məktəblərdə 60 minə qədər şagird təhsil alıb.

Təhsil Nazirliyi gürcüdilli məktəblərdə 1-ci sinifdən 6-cı sinfə qədər dərsliklərin yenilənməsinə başlayıb. Nazirliyin bəyanatına görə, yeni dərsliklər sentyabrın 15-i məktəblərə veriləcək, ancaq bu qeyri-gürcüdilli məktəblərə aid deyil.

Nazir müavini Teymuraz Murğulia bu faktı belə izah edir: "Üç ayda bu dərsliklərin tərtib olunması və tərcüməsi mümkün olmayacaqdı. Əgər yaxşı kitabların nəşr olunmasını istəyiriksə uyğun olmalıdır. Yaxşı kitab və tərcümə olunmuş kitab çox fərqlənir. Ona görə də biz sentyabrdan pedaqoqlarla çalışmağa başlayacağıq. Məqsədimiz odur ki, hər şey vaxtında, adekvat şəkildə yerinə yetirilsin. Bu 15 sentyabra qədər mümkün olmayacaq. Bu olduqca böyük həcmli işdir, amma keçən illərdən fərqli olaraq biz bunun üzərində çalışmağa başlamışıq. Proses aktiv fazada gedir və yüksək dərəcəli dərsliklərimiz olanda başa çatacaq. 2019-cu il ən axrıncı olacaq, düşünmürəm ki, proses ondan da uzun çəksin".

Gürcüstanın Təhsil və Elm Nazirliyinin qeyri-gürcüdilli məktəblərin sayı ilə bağlı göstəriciləri aşağıdakı kimidir:

**Azərbaycan məktəbi – 82**
Azərbaycan – rus – 1
Azərbaycan – erməni – 1
Azərbaycan – gürcü– 31
**Rus məktəbi – 11**
Erməni – Azərbaycan sektoru – 1
Erməni – gürcü sektoru – 10
**Erməni məktəbi – 118**
Gürcü – Azərbaycan sektoru – 9
Gürcü – rus sektoru – 30
Gürcü – rus – Azərbaycan – 1
Gürcü – rus – erməni – 1

## DÖVLƏT TƏRƏFİNDƏN MALİYYƏLƏŞƏN PRİORİTETLİ TƏHSİL PROQRAMLARI

Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi 2018-2019-cu tədris ilində qəbul olan tələbələr üçün sonrakı istiqamətlərdə təhsil proqramlarının maliyyələşdirilməsinə birbaşa dəstək olmağa davam edir:

Aqrar elmlər; Təhsil; Mühəndislik; Elm/Təbiətşünaslıq elmləri; Sosial elmlər; Humanitar elmlər və istiqamətlər arası fənnlər və ixtisaslar;

Prioritetli proqramarlara tələbələrin proqram və qrant maliyyəsinin miqdarı 100% təşkil edir.

Birbaşa maliyyələşdirmə ilə tələbələrin proqramlara bölünməsindən sonra geridə qalan məbləğ həmin ali təhsil müəssisəsinin prioritetli istiqamətinin başqa ixtisas proqramlarına tələbələrin ümumi siyahısına əsasən bölünəcək.

## UNİVERSİTETLƏRDƏ YENİ İXTİSASIN TƏDRİSİNƏ BAŞLANILACAQ

Universitetlərdə Mülki mühəndislik adlı yeni ixtisasın tədrisinə başlanılacaq. Müvafiq dəyişiklik artıq milli kvalifikasiya çərçivəsinə daxil olub.

Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzin direktoru Tamar Sanikidzenin bəyanatına əsasən, Mülki mühəndislik ixtisası tamamilə yeni yanaşmaları nəzərdə tutur və bu kvalifikasiyaya sahib olan şəxslər tikinti mütəxəssisindən fərqlənəcək.

"Bu yeni ixtisasın özəlliyi ondadır ki, mülki mühəndislik halında müasir bazarın tələbləri daha kəskin şəkildə öndə durur. Mülki mühəndislik, ümumiyyətlə, tikintini, quruculuğu, layihələşdirməni, testləşdirməni, tikinti rəhbərliyini əhatə edir. Bunlar tikinti istiqamətindən vacib dərəcədə fərqlənir", – bildirib Tamar Sanikidze.

Onun sözlərinə görə, mülki mühəndislik öz əsası ilə daha çox sahə quruculuğudur və hidrotexniki tikintini, nəqliyyat sistemlərinin, su təchizatı sistemlərinin və mühəndisliyi nəzərdə tutur.

Mülki mühəndislik bakalavr və magistr pillələrində tədris olunacaq. İxtisas üzrə proqramları ali təhsil müəssisələri tərtib etməli və müvafiq akreditasiya əldə etməlidirlər.

## MƏKTƏB İDARƏÇİLİYİNƏ DƏSTƏK MƏQSƏDİ İLƏ XÜSUSİ JURNAL NƏŞR EDİLİR

"Məktəb idarəçiliyi" jurnalının 3-cü sayı nəşr olunub. Oxucular jurnalın bu sayında – təhlükəsiz məktəb, inkluziv təhsil, zorakılığın aradan qaldırılması, qeyri-rəsmi təhsil, bir direktorun uğur hekayəsi mövzuları ilə tanış ola biləcəklər.

Jurnal məktəb rəhbərliyi üçün nəzərdə tutulub və silsilə xarakteri daşıyır. Nəşrdə ümumi təhsil müəssisələrinin idarəsinin aktual məsələləri, ən yaxşı təcrübə nümunələri, direktorlarla müsahibələr yer alır. Jurnal məktəb direktorlarına idarə baxımından mövcud olan problemlərlə daha yaxşı tanış olmağa kömək edir. Jurnal bütün ictimai məktəblərə pulsuz veriləcək.

"Məktəb idarəçiliyi" jurnalı Müəllimlərin Peşəkar İnkişaf Mərkəzinin sifarişi ilə "Minilliklərin çağırış fondu – Gürcüstan"ın müəllimlər və məktəb direktorlarının peşəkar inkişafı layihəsi çərçivəsində yaradılıb.

# CƏMİYYƏTİMİZİN GEYİNDİRDİYİ AĞ GƏLİNLİYİN QARA ASTARI



**Müzakirə olunan mövzu real faktlara əsaslanır, heç bir xəyali fikirlərdən qaynaqlanmır.**

Uzun müddətli aradan sonra sizlərlə birlikdə olub öz fikirlərimi sizinlə paylaşmaq məni nə qədər sevindirirsə cəmiyyətimizdəki bu problemləri görüb, onlar haqqında düşünmək o qədər də kədərləndirir. Bəlkə də bu mövzunu müzakirə mövzusu etməyim mənim və mənim kimi minlərlə gəncin bu problemlərdən əziyyət çəkməsidir. Bu mövzuya biz yas mərasimləri məsələsində də toxunmuşduq, bu gün isə ailə quran gənclər çərçivəsində toxunacayıq.

Mövzunu həm mənəvi, həm maadi baxımdan müzakirə etmək istəyirəm. Bir problemi müzakirə etmək üçün onun normal şərtlərdə necə olduğuna baxmaq sonra bizdə bu problemi yaradan səbəbləri araşdırmaq və sonda nəticə çıxarmaq lazımdır.

Ailə qurmaq, övlad sahibi olmaq, ailə xoşbəxtçiliyi dünyada ən pis niyyətli insanın belə arzuladığı gözəl arzulardır. Gəlin baxaq ailə qurmaq və xoşbəxt olmaq üçün bizlərə nə lazımdır və biz nə edirik?

Xoşbəxt ailə qurması  üçün mənim fikrimcə hər bir insan aşağıda sadalananları nəzərə almalıdır;

1. Özünü və ailə quracağı insanı xoşbəxt edəcək qədər sağlam  və düzgün fikirlərə sahib olmaq.

2. Sahib olduğu düşüncələrlə öncə özünün xoşbəxt olacağı bir həyat şəraiti qurmaqdır, çünki əgər insan özünün xoşbəxt olacağı həyat şəraiti yoxdursa, başqasını xoşbəxt edə bilməz.

3. Sahib olduğunuz düşüncəyə uyğun insanla ailə qurun, çünki fərqli düşüncələr üçün xoşbəxtlik anlamı da fərqlidir.

4. Həyatı imkanlarınıza (maddi) görə yaşayın, kiminsə  fikrinə görə yox. Çünki sabah həyatın gerçəkləri ilə siz üz-üzə qalacaqsınız, başqalarının düşüncələri ilə deyil.

Müzakirəmizə başlayaq. Birinci məsələ, biz ailə quracaq qədər sağlam düşüncəyə sahibik, yoxsa ailə qurmaq sadəcə olaraq bir insani ehtiyacdır? Çox təəssüf hissi ilə qeyd etməliyəm ki, bu düşüncələrin formalaşmağı insanların fizioloji istəklərindən geridə qalır. Yəni insanın ailə qurması üçün bu cür fikirlərin formalaşmağına ehtiyac yoxdur, sadəcə cəmiyyətimizdə şablon halı almış bəzi kriteriumlar öz yerini almalıdır, buna "insanların fikrinə mənəvi zorakılıq" adı da vermək olar. Məsələn, "Məktəbi bitirib, niyə saxlayırsınız", "Yekə qızdır, artıq ərə getmək vaxtıdır", "Avaraçılıq edir, evə yığmağın bir yolu var: arvad almaq" və s. Bunun səbəbi nədir, niyə bu cür yanaşma var? Bu və ya başqa səbəbləri sonda Platonun "Mağara alleqoriyası" ilə cəm şəkildə izah etməyə çalışacam.

İkici önəmli məsələ, özünü və ailəni xoşbəxt edəcək şəraitin olmasıdır. Özünüzü və ailənizi saxlayacaq (təbii ki, başqa insanların fikrini nəzərə almadan) şərait yaratmaq, ailə ehtiyaclarını ödəmək çox önəmlidir, çünki real həyatın şərtləri bunu tələb edir. Burda da yenə zorakı fikirlər meydana çıxır: "Ata, ananın canı sağ olsun", "İndiyə kimi kim acından ölüb", "Allah Kərimdir" və s.

Üçüncü önəmli məsələ, eyni düşüncədə ola biləcəyiniz insanla ailə qurmaq, çünki insanları bir-birinə bağlayan ən önəmli bağlardan biri düşüncə bağıdır. Düşüncə bağları deyildikdə çox təəssüf ki, əksər hallarda heç bir-birilərini belə tanımırlar ailə quran çütlüklər. Bunun da əsas səbəblərindən biri həyat tərzimiz, səmimi münasibətlərin olmaması, qız və oğlanların barıt və od kimi böyüdülməsidir. Zorakı fikirlər burda da öz əksini tapır: "Əsas alana kimidir", "Uşaq olana kimidir" və s.

Dördüncü, həyatı imkanlarınıza (maadi) görə yaşamaqdır. İnsanlar öz imkanları çərçivəsində ailə qurmurlar, kiməsə baxaraq, kiminləsə bəhsə girərək yaşayırlar. Yazıqsınız, etməyin belə, borcla bahalı qızıllarla bir neçə saatlıq göstəriş üçün özünüzü və ailə quran gənclərin həyatını çətinə salmayın.

Təxmini hesablamalara görə, toylarda hədər yerə heç bir mənası olmayan, sadəcə göstəriş olsun deyə xərclənən pullarla gələcəkdə olacaq övladınızı yaxşı bağçaya qoya bilərsiniz, bir tələbənin dört illik təhsil haqqını ödəyə bilərsiniz və s. Mən ailələr tanıyıram övladını təhsil almağa qoymur ki, o pula cehiz alaram, qızın oxumağının kimə xeyri var. Bu düşüncə ilə yaşayan valideynlərə üzümü tuturam, siz bu gün varsız, sabah yoxsuz, amma bu gün verəcəyiniz təhsil siz olmasaz belə ömür boyu övladınızın yanında olacaq, ona həm ata, həm ana olacaq.

Bilirəm bu məsələləri bir məqalə ilə düzəltmək olmaz, amma  yenə də müzakirə etmək qərarına gəldim, yuxarıda qeyd etdiyim kimi, bu məsələyə Platonun "Mağara alleqoriyası" ilə toxunacam.

Hekayədə olduğu kimi bizim cəmiyyət bir mağaradır, insanlar orada illərdir yaşayırlar və  yalnız oradakı alovun qarşısından keçən şeylərin divardakı əksini görə bilirlər. Bu insanlar divarda əks olunan heyvan, bitki və insan kölgələrini heyrətamiz hesab edirlər. Bu kölgələrin həqiqət olduğuna inanır və əgər onlara kifayət qədər diqqət yetirsələr həyatda uğurlu olacaqlarını düşünürlər.

Bütün bunların əksəri zəif və qüsurlu ağlımızın divarlarına cəmiyyət tərəfindən əks etdirilən kölgələrdir. Bunlara kiçik yaşlardan inanmağa başlayırıq. Bu, bizim fərdi günahımız deyil. Heç kim mağarada yaşamaq istəməz. Lakin hamımızın başladığı yer oradır və bu, olduqca çətin bir başlanğıcdır.

Bir gün mağaradakı insanlardan biri azad edilir və açıq havaya çıxır. Gözləri günün işığından qamaşır, həyatında ilk dəfə günəşin işığı ilə aydınlanmış şeyləri görür. Yavaş-yavaş gözləri öyrəşməyə başlayır və daha əvvəl mağarada gördüyü kölgələrin gerçək formaları ilə qarşılaşır. Çiçəkləri, rəngli quşları, ağacların gövdələrinin detallarını görür. Ulduzlara baxır və kainatın dərinliyini qavramağa başlayır.

Platon bunu belə təsvir edir: "Əvvəllər bu insan yalnız kölgələri görürdü, indi isə varlığın həqiqi formasına yaxınlaşdı".

Bu yenicə aydınlanmış insan çaşqınlıq və illuziyalar içində olan dostlarına kömək etmək üçün mağaraya qayıtmaq qərarına gəlir. Mağaraya enərkən çöldəki işığa öyrəşdiyindən gözləri qaranlığa alışa bilmir və səndələyir. Artıq əvvəlkindən fərqli olaraq kölgələri aydın görməkdə çətinlik çəkir. Yoldaşlarına çöldə gördüyü ağaclardan, quşlardan və günəşdən danışır. Əsl həqiqətin kənarda olduğunu, onların gördükləri kölgələrin həqiqət olmadığını deyir. Mağara sakinləri ona inanmır və heç biri mağaradan çıxmaq istəmir. Onlar əvvəl onu lağa qoyur, sonra əsəbiləşir və öldürməyə çalışırlar.

Bizim insanların düşüncəsi də belədir, insanlar düzgünlüyə inanmağa, fikirlərini dəyişməyə can atmırlar, yenə də illuziyalarla yaşayırlar. Bu fikirləri insanlara düzgün çatdırmaqdan ötrü Platon Sokratın tətbiq etdiyi "Sokrat metodu" kimi tanınan sorğulama metodu ilə nail ola biləcəyimizi deyirdi. Bu metodda heç kimə dərs vermir, cəzalandırmır, hər hansı bir kitabı oxumağa məcbur etmirsən. İnsanların həqiqəti özlərinin dərk etməsinə şərait yaradırsan.

**Əvvəlcə mövzu haqqında ümümi bir bəyanat verirsən. Həmin mövzu barədə az məlumata sahib olduğunu vurğulayırsan. Məsələn, insanlar arasında yaxşı bir münasibətin necə davam edəcəyini dəqiq bilmədiyini etiraf edib, sonra digərlərinin bu mövzuda nə düşündüklərini öyrənərək yavaş-yavaş birlikdə cavabları nəzərdən keçirirsən. Böyük ehtimal qarşımızdakı şəxs özündən hədsiz dərəcədə əmin olacaqdır. Bizə cavabın olduqca bəsit olduğunu, hətta bunu hər kəsin bildiyini deyə bilər. Bu cür meydan oxuma qarşısında hədsiz dərəcədə səbirli olmaq lazımdır. Bu cür söhbət metodu sayəsində qarşı tərəfdə xoş bir inam hissi yaranır, doğru həvəsləndirmə ilə insanlar zamanla nəyin düz, nəyin yanlış olduğuna özləri qərar verə bilir və səhvləri öz ağılları ilə dərk edə bilirlər. Əgər diqqətli və səssiz şəkildə diqqətlərini incə nöqtələrə çəkə bilsək, onları günahlandırmasaq və əsəbiləşməsək bu proses həyata keçəcəkdir. Heç kimə həqiqətən elə olsalar da, özlərini səfeh kimi hiss etdirərək nəsə öyrədə bilməzsiniz.**

Elnur XƏMMƏDOV

## KÖHNƏ YANĞINSÖNDÜRƏN MAŞINLAR YENİLƏRİ İLƏ ƏVƏZ OLUNACAQ

"Zil" tipli köhnə yanğınsöndürən maşınlar Gürcüstanda hazırlanacaq maşınlarla əvəz olunacaq. Test üçün sentyabr ayında "Delta" hərbi-elmi texniki mərkəzdə maşınların hazırlanmasına başlanılacaq. Artıq prototip hazırlanıb və hal-hazırda Avstriya şirkəti olan "Rozenbauer" onun üzərində baxış keçirir.

"Qrup yaradılıb və orada bizim müəyyən təcrübəsi olan yanğınsöndürənlər də var. Avstriyalı mühəndislər də işə qoşulub. Üç tərəfli birgə çalışma nəticəsində prototip yaradılıb. İki nüsxə yaradıldıqdan sonra yəqin ki, silsilə sifarişlər verəcəyik. Gələn ildən istehsal başlayacaq. Bu texnikanı biz rayon və bələdiyyələrdə köhnə "Zillərin" əvəz edilməsi üçün də nəzərdə tutmuşuq", – deyə Fövqəladə halların İdarə olunması üzrə Xidmətin rəhbər vəzifəsini yerinə yetirən Şalva Xutsişvili bildirib.

Ş. Xutsişvilinin sözlərinə görə, Gürcüstanda hazırlanmış maşınlar multifunksional və sürətli reaksiya göstərmək üçün nəzərdə tutulub.

"Bu maşınlar multifunksional yanğınsöndürən maşınlardır. Bununla bələdiyyənin yanğınsöndürənləri sürətli reaksiya üçün hazır olacaqlar. Ümumiyyətlə, toplanmış təcrübədir ki, yanğınsöndürən xidmətində bir neçə növ maşın var. Birinci, sürətli reaksiya göstərən maşınlardır, sonra müqayisədə ağır maşınlar yer alır. Meşə üçün maşınlar ağır kateqoriyaya daxildir. Bu maşınlar sürətli rekasiyalı olacaqlar və "Delta"nın bazasında hazırlanacaqlar deyə, ola bilsin ağır relyefdə də çalışsınlar. Bu maşınlar tamamilə Gürcüstan tələblərinə uyğun olacaq", – Ş. Xutsişvili bildirib.

Onun sözərinə görə, avqust ayının sonunda harada və neçə maşının əvəz olunacağı haqqında məlumat veriləcək.

## GÜRCÜSTANDA NATO VƏ Aİ ÜZVLÜYÜNÜN TƏRƏFDARLARI ARTIB



ABŞ-ın Milli Demokratiya İnstitutunun (NDI) Gürcüstanda keçirdiyi sorğunun nəticələrinə əsasən, Gürcüstanın NATO və Avropa İttifaqına daxil olmasını ötən illərlə müqayisədə daha çox adam dəstəkləyir.

Sorğu iyunun 23-dən iyulun 8-ə qədər keçirilib. Respondentlərin 75 faizi NATO-ya, 81 faizi isə Aİ-yə daxil olmağın lehinə səs verib. Belə ki, ötən illə müqayisədə Gürcüstanın bu qurumlara daxil olmasını istəyənlərin sayı 10 faiz artıb. Vətəndaşlar arasında Avro-Atlantik məkana inteqrasiya kursu yalnız 2013-cü ildə bu cür dəstək qazanmışdı.

Xarici siyasətdən başqa, Gürcüstanda baş verən hadisələr, büdcə prioritetləri, demokratiya və ətraf mühit kimi məsələlərlə bağlı da sorğu keçirilib.

Siyasi partiyalarla bağlı sorğu edilənlərin əksəriyyəti bildirib ki, heç bir siyasi partiya onların baxışlarına uyğun gəlmir. Sorğu olunanların 18 faizi iqtidarda olan "Gürcü arzusu" partiyasına, 10 faizi "Vahid Milli Hərəkat"a, 3 faizi isə Leyboristlər Partiyasına rəğbət bəsləyir.

"Əgər sabah prezident seçkiləri olsaydı, kimə səs verərdiz?" sualına 74 faiz "bilmirəm" cavabını verib. Seçkiyə gedəcəyinə qərar vermiş respondentlərin 20 faizi "Gürcü arzusu" partiyasının, 8 faizi "Vahid Milli Hərəkat"ın, 7 faizi isə Avropa Gürcüstanı Partiyasının namizədini dəstəkləyəcəyini bildirib.

Ölkənin əsas problemləri ilə bağlı sorğu edilənlər növbəti dəfə əsas problem olaraq yoxsulluğu və işsizliyi göstəriblər. Respondentlərin 59 faizi bildirib ki, ötən ay bircə gün də işləməyiblər. Bu suala müsbət cavab verənlər 30 faiz təşkil edib. Onlardan 11 faizi növbəti ay əllərindəki işi saxlaya biləcəklərinə əmin olmadıqlarını bildiriblər.

## BU İL QARDABANİDƏ BEŞ UŞAQ BAĞÇASI BƏRPA OLUNACAQ



Cari ildə Qardabanidə beş uşaq bağçası bərpa olunacaq. Tikinti işləri artıq başlayıb.

"Layihəni tenderdə qalib gələn MMC "BUILD TERRITORY" şirkəti həyata keçirir. Layihənin ümumi dəyəri 764 010 larini təşkil edir. Layihəyə əsasən, Qardabani şəhərinin 1 saylı uşaq bağçasının binasının bayır-fasadı təmir ediləcək, ərazi hasarlanacaq və uşaqlar üçün atraksionlar quraşdırılacaq. 2, 3, 4 və 5 saylı uşaq bağçalarında isə binanın tam bərpası həyata keçiriləcək. Tenderdə qalib gəlmiş şirkətin tikinti işlərinin başa çatma müddəti 9 sentyabr tarixidir. Layihənin həyata keçirilməsinə MMC "Optima qrup+" şirkəti nəzarət edir.

Qardabani meriyasının mətbuat xidmətinin yaydığı məlumata əsasən, Qardabani bələdiyyəsində 23 uşaq bağçasının bərpası həyata keçiriləcək.

## BOLNİSİ BƏLƏDİYYƏSİNİN KƏNDLƏRİNDƏ QAZLAŞDIRMA ÜÇÜN İŞLƏRƏ BAŞLANILIB



MMC "Gürcüstan qaz daşınması" şirkəti Bolnisi bələdiyyəsinin Mamxuti, Xataveti, Kvemo Arkevani, Zemo Arkevani, Qeta kəndlərində qazlaşdırma üçün lazımi işlərə başlayıb. Ümumilikdə 52 190 metr uzunluğunda boru kəməri çəkiləcək. Boru kəməri 1199 abonentə təbii qazdan istifadə etmək imkanı verəcək.

Qeyd edək ki, "Gürcüstan qaz daşınması" şirkəti hökumət sərəncamı əsasında əhalinin qazla təmin olunması üçün vacib layihələr və tikinti işləri həyata keçirir.

## BANKLARDA "QARA SİYAHI" TERMİNİ LƏĞV OLUNUR

Kredit çıxarışında "neqativ" status əvəzinə istifadəçinin/kredit götürənin kredit tarixçəsi haqqında faktiki göstəricilər təsvir olunacaq. Bu haqda Milli Bank tərəfindən yayımlanan "Kredit haqqında məlumat bürosunun Gürcüstan Milli Bankında qeydiyyatın ləğv olunması və tənzimlənməsi qaydası" və "Kredit haqqında məlumat bürosuna məlumat verilməsi, bazada qeydiyyata düşmək və kreditin əlçatanlıq qaydası" layihələrində qeyd olunub.

Kredit haqqında məlumat bürosunun tənzimləyici aktları kredit haqqında məlumat bürolarına icazə verilən işlərin siyahısını, administratorların uyğun olması meyarlarını, kapitalın minimal miqdarını, əməliyyat və başqa risklərin idarəsi tələbini və məlumat almaq, qeydiyyata düşmək kimi ciddi yazılmış normaları müəyyən edir. Layihələrdə həmçinin, kredit haqqında məlumat bürosuna nəzarət baxımından Milli Bankın səlahiyyətləri müəyyən edilib.




"Hal-hazırda mövcud olan təcrübə dəyişir. Təcrübəyə əsasən, ödəmə müddəti keçdikdə kredit çıxarışında istifadəçiyə "neqativ" statusu verilirdi. Dəyişikliklər nəticəsində kredit çıxarışında "neqativ" statusu əvəzinə istifadəçinin/kredit götürənin kredit tarixçəsi haqqında faktiki göstəricilər təsvir olunacaq. Kredit haqqında məlumat bürosunun tənzimlənməsi layihələri büro tənzimləmələrinə dair mövcud olan əsas beynəlxalq prinsiplərə uyğundur və Dünya Bankının texniki yardımı çərçivəsində işlənilib", -məlumatda qeyd olunur.

Qeyd edək ki, Gürcüstan Milli Bankına kredit haqqında məlumat bürosunun işinin tənzimlənməsi və nəzarət səlahiyyəti "Gürcüstan Milli Bankı haqqında" qanunda həyata keçirilmiş dəyişikliklərə əsasən verilib. Dəyişiklikləri Parlament 2017-ci ilin sonunda təsdiqləyib və 2018-ci ilin 11 yanvar tarixində qüvvəyə minib.

Dəyişikliklərə əsasən, Milli Banka 2018-ci ilin 1 sentyabrına qədər kredit haqqında məlumat bürosunun işinə nəzarəti tənzimləyən hüquqi aktlar verməsi tapşırılıb. Həmin dəyişikliklərlə Gürcüstan Milli Bankına 2018-ci ilin 1 sentyabrından kredit haqqında məlumat bürosuna nəzarət etmək səlahiyyəti verilib.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN SAKREBULOSUNDA BMT GUŞƏSİ AÇILIB




Qardabani bələdiyyəsinin sakrebulosunda Gürcüstanda BMT-nin və "Demokratiya üçün gənc təşəbbüs" Qeyri-hökumət təşkilatının dəstəyi ilə BMT guşəsi açılıb. Guşədə BMT-Gürcüstan haqqında müvafiq ədəbiyyat, eləcə də bukletlər və BMT-nin baneri yerləşdiriləcək.

Qeyd olunan layihə maraqlanan vətəndaşlara BMT-nin davamlı inkişaf məqsədləri haqqında məlumat almaq və müvafiq ədəbiyyatdan istifadə etmək imkanı verəcək.

Layihə çərçivəsində sakrebulo üzvlərinə, meriyanın ictimai məmurlarına "BMT-nin davamlı inkişaf məqsədləri" haqqında təlim keçiriləcək və müvafiq sertifikatlar veriləcək.

## GÜRCÜSTANIN İSTİRAHƏT ZONALARINDA TAKSİLƏRİN QEYDİYYATDAN KEÇMƏSİ MƏCBURİ OLMAYACAQ

Avqustun 1-dən artıq Tbilisidə taksilərin qeydiyyatı başlayıb. Cari ilin 1 oktyabrından isə icazəsiz taksilik edən sürücülər cərimələnəcək. Reformanın başlanğıcında istirahət (kurort) yerlərində də taksilərin qeydiyyatdan keçməsindən söhbət gedirdi. Cari ilin yanvar ayında infrastruktur naziri olan Zurab Alavadze bildirmişdi ki, Gürcüstanın istirahət zonalarında da taksilərin məcburi qeydiyyatı aparılacaq.

Ancaq qeyd olunan fikir yalnız ideya olaraq qaldı.

İnfrastruktur nazirliyindən bildiriblər ki, istirahət yerləri deyəndə əsasən Bakurianidən söhbət gedirmiş, ancaq Alavadzenin bəyənatından sonra mövzu müzakirə olunmayıb və heç bir yenilik yoxdur.

Məlumata əsasən, qeyd olunan məsələ nazirliyin qərar verəcəyi məsələ deyil və müvafiq bələdiyyələr öz ərazilərində tənzimləmələr təyin etməlidir.

## GÜRCÜSTANDAN MEDİKAMENTLƏRİN İXRACI AZALIB

2018-ci ilin yanvar-iyun aylarında Gürcüstanda medikamentlərin ixracı 3.1 milyon ABŞ dolları dəyərində azalıb.

Cari ilin hesabat dövründə medikamentlərin ixracı 64,1 milyon dollar təşkil edib. 2017-ci ilin analoji dövründə isə bu göstərici 67,2 milyon dollar olub.

Qeyd edək ki, cari ilin yanvar-iyun aylarında qeyd olunan əmtəə qrupu ən böyük ixrac əmtəə qruplarının onluğunda 5-ci yeri tutur və onun hissəsi ümumi ixracda 4% təşkil edib.

Milli Statistika Xidmətinin göstəricilərinə əsasən, 2018-ci ilin birinci altı ayında Gürcüstanda əmtəə ilə xarici ticarət dövriyyəsi 5 985.9 milyon ABŞ dolları təşkil edib. Bunun 1 593.6 milyon dollarını ixrac, 4 392.3 milyon dollarını isə idxal təşkil edib.

## BOLNİSİ MERİ SAVANETİ KƏNDİNDƏ MMC "GÜNƏŞLİ MƏHSUL" MÜƏSSİSƏSİNİ ZİYARƏT EDİB

Bolnisi bələdiyyəsinin meri David Şerazadişvili bələdiyyənin majoritar deputatları ilə birgə Savaneti kəndində fəaliyyət göstərən müasir standartlarla təchiz olunmuş kənd təsərrüfatı məhsullarının saxlandığı MMC "Günəşli məhsul" müəssisəsini ziyarət edib. Müəssisə "Vahid aqrolayihə" çərçivəsində yaradılıb. Ziyarət zamanı rəsmilər müəssisə rəhbəri ilə söhbət edib və saxlanılan illik məhsulun miqdarı ilə maraqlanıblar.

Qeyd edək ki, anbarda illik olaraq eyni zamanda 2000 ton müxtəlif tərəvəzin yerləşdirilməsi mümkündür. Müəssisədə 25 nəfər işlə təmin olunub.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 AVQUST 2018-Cİ İL
№012 (71)

## GÜRCÜ DİLİNDƏ “MİRZƏ FƏTƏLİ AXUNDZADƏ VƏ GÜRCÜSTAN” ADLI KİTAB NƏŞR EDİLİB




Tbilisidə gürcü dilində “Mirzə Fətəli Axundzadə və Gürcüstan” adlı kitab nəşr edilib. Kitabda gürcü yazıçı və şairlərinin, jurnalistlərinin və ictimai xadimlərinin Mirzə Fətəli Axundzadə barəsində fikirləri, həmçinin ötən əsrin 40-cı illərindən bu günə qədər Gürcüstanın dövri mətbuatında bu böyük mütəfəkkirin yubiley və anım günləri ilə əlaqədar keçirilən tədbirləri əks etdirən yazılar yer alıb.

Kitabın tərtibçisi Gürcüstan Yazıçıları Milli Akademiyasının Azərbaycan bölməsinin rəhbəri, tərcüməçi jurnalist, tədqiqatçı Mirzə Məmmədoğludur.

Müəllif kitab üzərində bir neçə il işlədiyini bildirib. “Ötən əsrin 38-ci ilindən bəri kitab, qəzet və jurnalları gözdən keçirərək Mirzə Fətəli barəsində yazıları bir yerə topladım. Eyni zamanda, Mirzə Fətəliyə və onun ailəsinə aid yeni fotolar üzə çıxartdım və yeni kitab ərsəyə gəldi”, - deyə M. Məmmədoğlu bildirib.

O qeyd edib ki, 2012-ci ildə bu yazıların əksər hissəsi Azərbaycan dilinə tərcümə edilib, Azərbaycanın Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi ilə Bakıda nəşr olunub.

Bununla kifayətlənməyən müəllif axtarışlarını davam etdirərək indiyədək Azərbaycan ictimaiyyətinə məlum olmayan fotolar, yeni yazılar üzərə çıxarıb. Həmin materialları bir yerə toplayaraq öz hesabına bu kitabı nəşr etdirib.

“Kitabda Gürcüstanın rusdilli dövri mətbuatında Axundzadə barədə 40-a qədər müəllifin yazıları verilib. Kitab Lomonosov adına Moskva Dövlət Universitetinin professoru olmuş Əziz Şərifin 1934-cü ildə Tiflisdə nəşr olunan “Türk ədəbiyyatı” kitabının “Ön söz”ünün Mirzə Fətəliyə aid olan hissəsi ilə açılır. Ümid edirəm Axundzadəşünaslıq, eləcə də Azərbaycan-Gürcüstan ədəbi əlaqələri sahəsində yeni bir səhifə olan bu kitab gürcü oxucuların da böyük marağına səbəb olacaqdır”,- deyə M. Məmmədoğlu vurğulayıb.

## GÜRCÜSTAN AVROPA İDMAN HƏFTƏLİYİNƏ QOŞULUB




Avropa Birliyinə üzv olmayan ölkələrdən Avropanın ən aktiv idman həftəliyinə qoşulan ilk ölkə Gürcüstandır. “Avropa idman həftəliyi” (European Week of Sport – #Be Active) Avropa Komissiyasının təşkilatçılığı ilə 2015-ci ildən hər il keçirilir və Avropa miqyasında idman və fiziki aktivliyin məşhurlaşdırılmasına dəstək olur.

Bu il 23-30 sentyabr tarixlərində müxtəlif idman növləri üzrə tədbirlər eyni zamanda 32 ölkədə keçiriləcək.

Gürcüstanda tədbirlərin koordinatoru Gürcüstan Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyidir.

“Avropa idman həftəliyi” yaşından, idman təcrübəsindən və fiziki hazırlıq səviyyəsindən asılı olmayaraq hamı üçün keçirilir. Kampaniya #BeActive (Aktiv ol) heşteqi ilə əhalini sağlam həyat tərzi ilə yaşamağa və aktiv olmağa çağırır.

2018-ci ildə həftəlikdə 32 ölkə iştirak edəcək. 2015-ci ildən bu günə kimi 37,518 tədbir və 14,603,172 iştirakçı qeydə alınıb. Cari ildə kampaniyanı 40-a qədər beynəxalq təşkilat dəstəkləyir. Onlar arasında Avropa Olimpiya Komitəsi, Avropa Paralimpiya Komitəsi, Xüsusi Olimpiada, Avropa Həndbol Federasiyası, Avropa Futbol Assosiasiyası da var.

## “PARKER SOLAR PROBEP” ZONDU GÜNƏŞ ATMOSFERİNİ ÖYRƏNƏCƏK



ABŞ Kosmik Agentliyi (NASA) Günəş atmosferinin tədqiqi üzrə missiya üçün “Parker Solar Probe” kosmik zondunu ikinci cəhddə Kanaveral kosmodromundan buraxılışını həyata keçirib.

Zondun buraxılışı əvvəlcə iyulun 31-nə planlaşdırılsa da, çoxlu texniki problemlərə görə bir neçə dəfə təxirə salınıb. Avqustun 11-də aparatın buraxılışı üçün ilk cəhd edilib, lakin starta 2 dəqiqə qalmış helium təzyiq cihazlarının işinin pozulması haqqında xəbərdarlıq işə düşüb. Bazar günü raketin uğurlu buraxılışı həyata keçirilib.

“Parker Solar Probe” kosmik zondu Günəşin kənar haləsinin öyrənilməsi üçün nəzərdə tutulub. Aparatın Günəşə 6,1 milyon kilometr məsafədə yaxınlaşacağı planlaşdırılır.

NASA mütəxəssislərinin sözlərinə görə, zond Günəş haləsinin Selsi üzrə 2 milyon dərəcə təşkil edən temperaturuna dözümlü olacaq.

## PREZİDENT SEÇKİLƏRİNƏ 42 MİLYON LARİ AYRILIB



Bu ilin oktyabrında Gürcüstanda keçiriləcək prezident seçkilərinə dövlət büdcəsindən təxminən 42 milyon lari ayrılıb. Bu barədə jurnalistlərə Gürcüstan Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Tamar Jvaniya məlumat verib.

MSK sədrinin sözlərinə görə, bu vəsaitin 1,2 milyon larisi seçkilərlə bağlı treninqlərin təşkilinə, 9 milyonu prezidentliyə namizədlərin və onların səlahiyyətli nümayəndələrinin televiziya vasitəsilə təbliğatına sərf olunacaq.

T. Jvaniya bildirib ki, əvvəllər prezident seçkiləri üçün 39 milyon lari ayrılması planlaşdırılırdı. Bu məbləğ seçki marafonunun seçkilərə 60 gün qalmış elan olunduğu vaxta görə nəzərdə tutulmuşdu. Amma seçki marafonu daha tez elan edildi və bu da əlavə xərclərin yaranmasına səbəb olub.

Bununla belə T. Jvaniya seçkilər üçün nəzərdə tutulmuş vəsaitin artırılacağını da istisna etməyib.

## BANKLAR FİZİKİ ŞƏXSLƏRƏ VERİLMİŞ KREDİTLƏRİN FAİZİNDƏN 923,3 MİLYON LARİ DƏYƏRİNDƏ GƏLİR ƏLDƏ EDİBLƏR




2018-ci ilin iyun ayına olan göstəricilərə əsasən, fiziki şəxslərə verilmiş kreditlərdən kommersiya bankları 923,246,686 lari dəyərində gəlir əldə ediblər. Bu haqda məlumat bankların maliyyə hesabatlarında qeyd olunub.

Hesabatlara əsasən, fiziki şəxslərə verilmiş kreditlərin faiz gəliri olaraq ən yüksək məbləği – 352,288,454 lari – “Saqartvelos Banki” (Gürcüstan Bankı) əldə edib. Ondan sonra “TBC Bank” oxşar kreditlərin faiz gəlirindən – 292,506,366 lari əldə edib. 3-cü yeri isə – 123,443,693 lari gəlirlə “Liberti Bank” tutur. Göstəricilərə əsasən, “Credo Bank” – 58,159,517 lari və “VTB Bank” – 27,983,181 lari dəyərində gəlirlə 4-cü və 5-ci yerləri tutublar.

Beləliklə, hesabat dövründə kommersiya bankları verilmiş kreditlərdən faiz gəliri olaraq 1,391,431,180 lari əldə ediblər.

## 6 AY ƏRZİNDƏ BANKLAR MÜŞTƏRİLƏRİN ÖDƏDİYİ CƏRİMƏLƏRDƏN 38,7 MİLYON LARİ ƏLDƏ EDİBLƏR



Kommersiya bankları 2018-ci ilin 6 ayı müddətində cərimələrdən və müştərilərə verilən kreditlərdən cərimə olaraq 38 796 157 lari gəlir əldə ediblər.

Bankların hesabatına əsasən, cərimələrdən ən çox gəlir 13 666 962 lari olmaqla “TBC” Bank əldə edib. İkinci yer “Saqartvelos Banki” - 10 126 645 lari, üçüncü yerdə “Liberti Bank” durur. 2018-ci ilin iki kvartalında “Liberti Bank”cərimələrdən və müştərilərə verilmiş kredit cərimələrindən 6 730 640 lari gəlir əldə edib. Dördüncü yerdə 2 492 860 lari dəyərində məbləğlə “Credo” Bankdır. Beşinci yeri isə 1 426 764 lari gəlirlə “Finka Bank” tutur.

Qeyd edək ki, 2018-ci ilin birinci kvartalında cərimələrdən əldə olunan məbləğ 18 038 840 larini təşkil edirdi. Bu o deməkdir ki, ikinci kvartalda bankların cərimələrdən əldə etdiyi gəlir 20,7 milyon lari, yəni 100%-dən çox artıb.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər Musaoğlu
Yayım Direktoru: Hacı Bəkiroğlu
Qrafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.